

**BUDAQ TƏHMƏZ**
*Məmməd Araz mükafatı laureatı*

## GÖZLƏRİN AYDIN

*Dostum Yusif Cəfərbəyli və cəmi*
*Laçın əhlinə gözaydınlığı*

Yusif Cəfərbəyli, gözlərin aydın,
Laçın da işğaldan azad olubdu.
Bu sonsuz sevinci dünyaya yaydın,
Sevincdən mənim də gözüm dolubdu.

Gəldi göz önünə Laçın dağları,
Sandım ki, Həkəri üzümə güldü.
Əridi sevincdən zirvənin qarı,
Elə bil dağlar da kədərin sildi.

O mənfur düşmənlər diz çökdü bizə,
Düşmənin bağrını yardı ordumuz.
Dünya heyran qaldı iradəmizə,
Çıxdı azadlığa doğma yurdumuz.

Laçına sancıldı vətən bayrağı,
Hər eldə, obada yandı ulduzlar.
Düşmənə veririk indi göz dağı,
Yenə gül toplayır gəlinlər, qızlar.

Yusif Cəfərbəyli, gözlərin aydın,
Laçın da işğaldan azad olubdu.
Bu sonsuz sevinci dünyaya yaydın,
Sevincdən mənim də gözüm dolubdu.

***01.12.2020,***
***Bakı şəhəri***

## ŞƏRURUN

*İstedadlı şair İbrahim Yusifoğluna*

Oxudum şeirini, könlümə axdı,
Hər misran düşmənə sancılan oxdu,
Gözün də, könlündə, əzəldən toxdu,
Ucadı hər yanda başı Şərurun.

Sözün kəsərlidi, qələmin iti,
Düşmənə nifrətin qətidi, qəti,
Yaşayır qanında Vətən qeyrəti.
Bilunmir neçədi yaşı Şərurun.

Burda söykənibdi dağlara dağlar,
Yaralı dağlarçün qəlbim qan ağlar
Arpaçay baharda kükrəyib çağlar
Qızıldı torpağı, daşı Şərurun.

Buyurdun baharda gözəl yazı var,
Sağında kükrəyən xan Arazı var,
Mənfur düşmənlərin burda gözü var.
Qədrini bilənməz naşı Şərurun.

Min nemət yetirir ana torpağı,
Yazda bara dolur baxcası, bağı,
Hər yandan, hər eldən gəlir sorağı,
Bahara bənzəyir qışı Şərurun.

Ruha fərəh verir bağların barı,
Göydə qaqquldaşır durna qatarı,
Çıxır gül seyrinə Şərur qızları,
Açılır qabağı, qaşı Şərurun.

## İNSANSIZ BU ŞƏHƏR

Baxmadı dənizə, baxmadı çaya,
Koronavirusu yaydı dünyaya.
Yaxşı ki, çatmadı əlləri aya,
Ayında nurunu söndürərdilər.
Göydən ulduzları yendirərdilər.

Sonunda qərq olub sahil meydanı,
Burda geyib-gülən balalar hanı?
Baxanda qaralır insanın qanı,
Xəzərdə susubdu, fikrə dalıbdı,
İnsansız bu şəhər yetim qalıbdı.

Külək atın çapır gen küçələrdə,
Toylar çalınmayır daha bu yerdə,
Dərman tapan yoxdu hələ bu dərdə,
Düşünən beyinlər fikrə dalıbdı,
İnsansız bu şəhər yetim qalıbdı.

Qatar da işləmir, yol üstə durub,
İllərlə yol gəlib özünü yorub,
Yetim uşaq kimi boynunu burub,
Elə bil bu qatar lap qocalıbdı,
İnsansız bu şəhər yetim qalıbdı.

Tanrı, bu şəhəri gətirmə gözə,
Bu şəhər atadır, anadır, bizə,
Ölümlə sən bizi qoyma üz-üzə,
Ölüm bu yerlərdə viran salıbdı,
İnsansız bu şəhər yetim qalıbdı.

***Bakı-Yasamal***
***07.06.2020***

# *QOCALAR ÇOX KÖVRƏK OLUR*

Çatıbdı ömrünün qışı,
Kədərlidi hər baxışı,
Gözlərində yaz yağışı,
Danışanda gözü dolur,
Qocalar çox kövrək olur.

Dağılıb cavanlıq taxdı,
Keçib qız qaytaran vaxtı,
Bir daha açılmaz baxdı,
Danışanda gözü dolur,
Qocalar çox kövrək olur.

Təsəllisi xatirələr,
Yada düşər, ürək dələr,
Göz önünə gələr nələr,
Danışanda gözü dolar,
Qocalar çox kövrək olur.

Gəl dindirmə, bənddi himə,
Dərd əlindən gəlir dəmə
Dərdini söyləsin kimə?
Danışanda gözü dolur
Qocalar çox kövrək olur.

***Bakı, 07.03.2020.***

# *İNANMA ŞEYTAN SÖZÜNƏ*

Hər addımda bir şeytan var,
Qanlar tökər, evlər yıxar,
Dayanmaz, aradan çıxar,
İnanma şeytan sözünə.

Danışanda hədd qoy sözə,
Yalan, böhtan, çıxıb dizə,
Şeytan da göz qoyur bizə,
İnanma şeytan sözünə.

İnsansan, uyma şeytana,
Evlər yıxma, qana-qana,
Nahaqdan düşərsən qana,
İnanma şeytan sözünə.

Şeytan gəzir içimizdə,
Bir gün bizdə, bir gün sizdə,
Şeytandan özünü gözdə,
İnanma şeytan sözünə.

Şeytan kimdi?O insandı.
Görəsən ki, haqqı dandı,
Dindirmə, danışsa qandı.
İnanma şeytan sözünə.

***Bakı, 2020.***

# *DÜŞÜNDÜRƏN MİSRALAR*

Bilmirəm hurisən, ya da ki, pəri,
Ay səni görəndə utanıb batır.
Səninlə açıram mən səhərləri,
Gözlərin gecələr gözümdə yatır.

***

Payızda tənəyin yığılar barı,
Tökülər üstünə qışda yağan qar.
Yaz gələr oyanar üzüm kolları,
Torpağın qəribə səxavəti var.

***

Yenə qan qoxusu gəlir, ay Allah!
Ağalar dünyanı yenidən bölür.
Dilim gəlmir bunu deməyə, vallah,
Ölkələr dağılır, insanlar ölür.

***

Cahana gətirir, sonra öldürür,
Hər bəşər övladı Tanrı barıdır.
Göylərdən torpağa yağan yağışlar,
Bəlkə də ruhların göz yaşlarıdır.

***

Təbiət insan kimidir,
Hərdən ağlar, hərdən gülər.
Torpaq yansa, susuzluqdan
Harayına göylər gələr.

***

Dünya Allah məbədidi,
Yıxılmaz fələyin taxtı.
Yer də, göy də əbədidi,
Hamı dünyada qonaqdı.

***

Gecə unuduram dərdi-sərimi,
Səhər açılanda dərdlərim gəlir.
Açıram sevinclə al səhərimi,
Kədər istehzayla üzümə gülür.

***

Sağkən xatirələr qəlbində gülür,
Vardı xatirənin acı, şirini.
Öləndə xatirə səninlə ölür,
O da torpaq altda tapır yerini.

***

Ölümlə ömürün yoxdu sərhədi,
Ölüm ömür bilməz qəfildən gələr.
Ölüm qarşısında ömrün nə həddi?
Ölüm nə vaxt gəldi onu kim bilər?

# YAVAŞ-YAVAŞ

*(mahnı mətni)*

Başına döndüyüm şəhərli qızı,
Qolumu boynuna sal yavaş-yavaş.
Sənin əsirinəm görəndən bəri,
Bu sınıq könlümü al yavaş-yavaş.

Varaqlandı yenə sinə dəftəri,
Sənə huri deyim, ya da ki, pəri,
Neynirəm qızılı, neynirəm zəri,
Əmim ləblərindən bal yavaş-yavaş.

İnsaf eylə, naza qoyma özünü,
Salma yerə sən şairin sözünü.
Bir yaxın gəl, öpüm o gül üzünü
Anamın gəlini ol yavaş-yavaş.

***Bakı - Buzovna,***
***10.07.2020.***

# DÜNYAMIZI QORUYAĞIN

Tanrının qəzəbi keçibdir bizə,
Baxıb nifrət edir əməlimizə,
Şər, böhtan dünyada çıxıbdır dizə,
Gəlin bu dünyanı qoruyağın biz,
Bizə alqış desin gələn nəslimiz.

Zəlzələ, sunami tutub dünyanı,
Axır dəryalara insanın qanı,
Yoxsa yaxınlaşır dünyanın sonu,
Gəlin bu dünyanı qoruyağın biz,
Bizə alqış desin gələn nəslimiz.

Bezib bu dünyanın dərdi-sərindən,
Torpaq nəfəs alıb dinir dərindən,
Dənizlər oynayır bu gün yerindən,
Gəlin bu dünyanı qoruyağın biz,
Bizə alqış desin gələn nəslimiz.

İnsan var üzü ağ Tanrı yanında,
İnsan kor mələkdi şeytan donunda,
Dünyanı su alıb Nuh əyyamında,
Gəlin bu dünyanı qoruyağın biz,
Bizə alqış desin gələn nəslimiz.

***18.02.2020.***

# DƏRDİM

Azadlıq axtardım qarabaqara,
Mənim ürəyimi dərd təkləyibdi.
Dabandan soyuldum, çəkildim dara
Dərdim ürəyimdə çiçəkləyibdi.

Doğma yurdlarımı talayan oldu,
Dərdi dərd üsdünə qalayan oldu,
Halal torpağımda "ulayan"oldu,
Dərdim ürəyimdə çiçəkləyibdi.

Dərd üstünə dərd qalanır hər ayım,
Laçına, Şuşaya çatmır harayım,
Dərdim başdan aşır mən necə sayım,
Dərdim ürəyimdə çiçəkləyibdi.

Təbrizin yolların ötə bilmirəm,
Gedirəm, Dərbəndə çata bilmirəm,
Qarabağ dərdindən yata bilmirəm.
Dərdim ürəyimdə çiçəkləyibdi.

Bu dərdim sevincə qərq olacaqdır,
Azğın düşmənlərə dərd olacaqdır,
Mənim son döyüşüm sərt olacaqdır,
Sevincim ürəkdə çiçəkləyəcək.

# ŞƏRUR TORPAĞINDAN BİZ İLHAM ALDIQ

*"Şərur qönçələri" ədəbi birliyimin 50 illiyinə*

Şərur qönçələri yaşatdı bizi,
Açdıq bu dünyada ürəyimizi,
Amansızmı oldu həqiqət sözü?
Şərur torpağından biz ilham aldıq,
Zirvədən, zirvəyə qalxıb ucaldıq.

Bir vaxt qönçə idik, qocaldıq biz də,
Misralar dil açdı ürəyimizdə,
Coşdu qəlbimizdə hər dürlü söz də,
Şərur torpağından biz ilham aldıq,
Zirvədən, zirvəyə qalxıb ucaldıq.

"İşıqlı yol" oldu bizim eşqimiz,
Tarix səhnəsində biz buraxdıq iz,
Qoy bizi yad etsin gələn nəslimiz,
Şərur torpağından biz ilham aldıq,
Zirvədən, zirvəyə qalxıb ucaldıq.

# BİR GÜN

Uşaqkən bilməzdim dünyada nə var,
Sinəmdə yatırmış min-min arzular,
Bilmirdim yağacaq saçlarıma qar,
Ömrüm xatirəyə dönəcək bir gün.

Dünyanın vəfası yoxdu əzəldən,
Mən də ilham aldım bir şux gözəldən.
Heyif ki, cavanlıq tez çıxdı əldən,
Ömrüm xatirəyə dönəcək bir gün.

İnsan da çiçəktək açılıb solur,
Buludtək hərdən də boşalıb, dolur,
Dünyadan köçəndə xatirə qalır,
Ömrüm xatirəyə dönəcək bir gün.

Dünyada olmasın heç vaxt nəs illər,
Dolanacaq aylar, illər, fəsillər,
Məni oxuyacaq gələn nəsillər,
Mənimdə həyatım sönəcək bir gün,
Ömrüm xatirəyə dönəcək bir gün.